**Təbii mineral suların qeydiyyatı üçün tələb olunan sənədlər**

Qeydiyyat ilə bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd olunmalıdır:

1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar:

1.1. ərizəçinin müraciət etdiyi inzibati orqanın adı;

1.2. ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar;

1.3. ərizə hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı;

1.4. tələbin qısa məzmunu;

1.5. ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;

1.6. hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü;

1.7. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.

2. qablaşdırılmış təbii mineral suyun adı, əmtəə nişanı, təbii mineral suların əldə olunduğu yeraltı yatağın və ya süxurun adı, yerləşdiyi ölkə və ünvanı.

3. Təbii mineral suların qeydiyyatı ilə bağlı təqdim edilən ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə edilir:

3.1. yeraltı yataqdan və ya süxurdan əldə olunan təbii mineral suyu qablaşdırılacaq qida subyektinin həmin su obyektindən istifadə hüququnu təsdiq edən sənəd (Azərbaycan Respublikasında yerləşən su obyektlərinə münasibətdə xüsusi məqsədlər üçün istifadə icazəsi);

3.2. tərkibin, o cümlədən mineral komponentlərin tədqiqinə (sınağına) dair protokol və tədqiqin (sınağın) aparılması metodikası;

3.3. idxal edilən məhsula münasibətdə mənşə sertifikatı və səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd.